# Larisanın yarımçıq qalmış melodiyası…



**1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycan xalqının yaddaşına təkcə qanlı faciə deyil, həm də milli azadlıq mübarizəmizin dönüş nöqtəsi kimi həkk olundu. Həmin müdhiş gecədə şəhid olanlar arasında bizim oxuduğumuz 134 nömrəli məktəbin şagirdi, sinif yoldaşım Larisa Məmmədova da var idi.**

13 yaşlı məktəbli qızın qətlə yetirilməsi bir nəslin uşaqlıq xatirələrində sağalmaz yara kimi qaldı: Larisa ilə eyni partada əyləşən, onun ən saf arzularına şahidlik edən rəfiqəsi kimi o günləri yenidən xatırlayıram.

Məktəbimizin yaxınlığında yaşayan Larisa yaddaşımda ağıllı, sakit və musiqiyə sonsuz həvəs göstərən bir qız kimi qalıb. Bizi təkcə eyni parta deyil, həm də musiqi məktəbindəki fortepiano dərsləri birləşdirirdi. Onun ən böyük arzusu gələcəkdə musiqi müəllimi olmaq idi. Dərsdənkənar vaxtlarda rəsmlər çəkir, yaşından çox böyük görünən mənzərələr yaradırdı. Evin böyük övladı olduğu üçün ailəsinə, xüsusilə kiçik bacı-qardaşına qarşı çox qayğıkeş idi. O, kiçik yaşlarından əllə toxumağı da öyrənmişdi, hətta qardaşı Emin və bacısı Nərminə üçün öz əlləri ilə geyimlər də hörmüşdü.

1977-ci ildə Ukraynada doğulan dostuma adını da orada qoymuşdular, lakin o, bu adı çox da sevmirdi. Tez-tez "5 ildən sonra şəxsiyyət vəsiqəsi alanda adımı dəyişib Lalə qoyacağam", – deyirdi. Təəssüf ki, həyat ona nə adını dəyişməyə, nə də arzuladığı musiqi müəllimi olmağa imkan verdi. Cəmi bir neçə saat əvvəl gülə-gülə ayrıldığımız bir dostumuzun itkisi məktəbdə hamını sarsıtmışdı.

Bu günlərdə Larisanın bacısı Nərminə xanımla görüşdük. O, hələ də 19 yanvar gecəsinin yarasını qəlbində daşıyır. Söhbət zamanı Nərminə xanım anasından dəfələrlə eşitdiyi o son saatlardan belə danışır: "Yanvarın 19-u idi. Həmin gün Larisa, sanki, nəsə hiss edirmiş kimi, avtobus sürücüsü olan atamın yanından bir an belə ayrılmaq istəmirdi. Anam qəlbinə daman o qəribə narahatlıq hissi ilə onu evdə saxlamağa çalışsa da, Larisanın inadı qarşısında çarəsiz qaldı".

Nərminə xanım deyir ki, o gün Larisa, sanki, öz bəlalı aqibətinə doğru can atırdı. Atası ilə onun iş yerinə gedəndə, heç kim bu ayrılığın əbədi olacağını ağlına gətirməmişdi. İndiki 20 Yanvar dairəsi yaxınlığında atası ayağından ağır yaralansa da, Larisa ürəyindən aldığı güllə yarası ilə əbədiyyətə qovuşmuşdu.

Nərminə xanım üçün Larisa o vaxtdan 13 yaşlı "böyük" bacı obrazıdır. O vaxtlar hələ kiçik olduğu üçün baş verənləri tam dərk etməsə də, illərdir ki, evdə qorunub saxlanılan o toxunma geyimlər, bacısının yadigarı olan hər bir əşya onun üçün Larisanın varlığını əks etdirən əziz nişanələrdir. Larisa onun yaddaşında anasının anlatdığı qayğıkeş, mehriban bacı obrazı ilə yaşayır.



Larisanın dəfnindən sonra sinif yoldaşlarımızla getdiyimiz Şəhidlər xiyabanındakı o izdiham qəlbimizdə silinməz izlər buraxmışdı. O gündən məktəbimizdə onun adını daşıyan sinfimiz bizim üçün müqəddəs yerə çevrilmişdi. O hadisələrdən 36 il keçsə də, Larisanın xatirəsi hər zaman bizimlə yaşayır.

Vətən müharibəsində qazanılan qələbə xalqımızın əyilməz iradəsini, qəhrəmanlığını dünyaya nümayiş etdirdi. Mənə isə elə gəlir ki, 13 yaşlı Larisanın – bizim sevimli Lələmizin 36 il əvvəl fortepianoda yarımçıq qalmış melodiyası, bu gün azad Şuşada, Qarabağda səslənir, zəfər sədalarına qarışaraq əbədiyyət nəğməsinə dönür.

***Arzu ƏLİYEVA***
***XQ***

Xalq qəzeti .- 2026.- 20 yanvar (№11).- S.9.